# *Bosfor sahilinə düşdü güzarım*

## "YAXŞI YOL!"

Ayağı dənizin suyundan içən,
Başının üstündən buludlar keçən
Mərmər pillələrlə üzü aşağı
Söylə enmisənmi heç axşam çağı?..

Belə geniş səma, göy sahil hanı!
Qəhrəman şəhərin böyük limanı
Gəlib gedənlərlə dolur, boşalır,
Gəmi karvanları bura yan alır.

Sular qaralanda, axşam düşəndə,
Dalğalar gah susub, gah gülüşəndə,
Göy sahil boyunca qarışanda şər
Nurdan boyunbağı taxır gəmilər.

Öpüb yola salır qardaş-qardaşı...
Bir cavan səyyahın çatılır qaşı,
Yanında nə dost var, nə ana-bacı,
Dənizdən yel əsir, daranır saçı.

O indi qürbətə düşəcək yola,
Qəhərdən az qalır gözləri dola.
Liman xidmətçisi "Yaxşı yol" – deyə
Hörmətlə ötürür onu gəmiyə.

"Yaxşı yol!" Hünərin varsa buna döz...
Nə qədər səslənmiş qulaqda bu söz.
"Yaxşı yol" demişik, eşitmişik biz
Səfərə çıxanda, işə gedəndə.



Qürurla, sevinclə vurmuş qəlbimiz
Vətən torpağını biz seyr edəndə.

Ürəyi yuxaldı cavan səyyahın,
"Yaxşı yol" deyənə o, döndü baxdı –
Qayıtdı geriyə, dayandı yaxın,
Qucaqlayıb onun əlini sıxdı.

Adi bir yoldaşın səsi deyildi
Uğurlar diləyən o həzin nida.
Vətənin adından sanki deyirdi
Ürəyi titrədən o səs, o səda.

İlk dəfə gördüyü adamla elə,
Sual etməyin ki, nəydi bu ülfət:
Coşğun bir sel kimi gəlmişdi dilə
Torpağa məhəbbət, elə məhəbbət.

Nə yaman olurmuş Vətən həsrəti,
Yetim uşaq kimi kövrəlir insan.
Dərindən duyarsan bu həqiqəti
Doğma sahilləri tərk edən zaman...

## "KEÇMƏ NAMƏRD KÖRPÜSÜNDƏN..."

Aralıq dənizi coşdu, qabardı,
Köpürdü dalğalar, qalxdı dalğalar.
Gəmi ləngər vurdu, suları yardı,
Suların üzünə iz saldı sular.

Külək nalə çəkdi, duman başladı,
Quşlar dəstə-dəstə gəldi haraya.
Fırtına başladı, yaman başladı,
Zirək dənizçilər düşdü əlhaya.

Üçüncü qatdakı göyərtəni də
Leysan yağışıtək döydü ləpələr.
Cumdu üstümüzə, cumdu yenə də
Köpükdən tac qoyan dağlar, təpələr...

Odlu yanaqların saraldı gülü,
Geri qayıtmasın bir də o günlər!
Yatdı kayutada boynu bükülü
Yorğun ceyran kimi qızlar, gəlinlər.

Dalğalar üstündə üç gün, üç gecə
Rahat nəfəs alıb yata bilmədik.
Qəzəbli sulardan biz keçə-keçə
Torpaq arzuladıq, torpaq dilədik.

Hardasan, ey sahil, ey qara torpaq,
Tufana baş əyməz vüqarlı dağlar!
Hardasan, ey yamac, ey incə yarpaq,
Ey düzlər, dərələr, yurdlar-ocaqlar?

(Duyar bu həsrəti, duyar bu qəmi
Kim qərib sularda tufana düşsə,
Köməyə çağıran, fit çalan gəmi
Doğma sahillərlə verər səs-səsə...)

"Sahil, sahil!" dedi burda hər ürək,
Nicat bu sözdədir, həyat bu sözdə.
Bəlkə tufan yata, bir az dincələk –
Bir ümid, bir həsrət yandı hər gözdə.

Ah, o üfüqdəki qaraltı nədir,
Görəsən adadır, yoxsa balina?!
Elə bil çağırır, bizə əl edir
Bu qərib gəminin yanır halına.

Böyüdü, böyüdü o tutqun ləkə,
Sinəsi meşəli uca dağ oldu.
Elə bil arxada qaldı təhlükə,
Həsrət unuduldu, dərd unuduldu.



Ümid, nicat deyə baxdıq o yana
Limanda körpülər, evlər göründü.
Qoymadı göz açaq yenə fırtına,
Dalğaların üzü döndü, nə döndü.

Gəmimiz fit verdi, imdad istədi,
"Olmaz!" işarəsi gəldi körpüdən.
Yamaclar səsləndi, düzlər gəl dedi,
Qəlbi daşa döndü insanın nədən?!

Onun əvəzinə çəkdi xəcalət,
Əndəlis dumanla örtdü üzünü.
Qonağa beləmi edərlər hörmət?!
Adamlar dəhşətlə yumdu gözünü.

Başımız üstündə qağayılar da
Çağırır köməyə bütün dünyanı.
Gör hara gəlmişik, çətində, darda
Yaxına qoymayır insan insanı?!

Dedik: "Davam edək səfərimizə,
Xain xoflu olar, ondan kar aşmaz.
Dursaq da ölümlə bu gün üz-üzə
Yadlara yalvarmaq bizə yaraşmaz!"

Çəkindi dalğalar sanki bu zaman,
Silindi qəlblərdən qorxunun izi.
Namərd körpüsünə ayaq basmaqdan
Qəhr etsə yaxşıdır fırtına bizi!

## BALACA DAYƏ

(*Poema*)

Kimin ki, bu şəhərdə
Yoxdur işi-peşəsi,
Bütün günü məskəni
Olur Bulon meşəsi.
Meşə də ki, nə meşə,
Yoxdur ucu-bucağı...
Deyir gəldin dərixma
Onun atlaz qucağı.
Ağacların dibini
Çiçəklər, otlar bəzər.
Tala-tala axmazı
Mavi səmaya bənzər.
Nağıl kimi görünər
Zanbaqlı göllər sənə,
Yel əsəndə nəzər sal
Suda çiçək rəqsinə...
Dəstə-dəstə qu quşu,
Nazla keçir – göl, sükut...
Sanki üzür səmada
Cəngə-cəngə ağ bulud.
Əlvan-əlvan güllərdən
Saçlarına düzən kim,
Burda atla, ulaqla,
Fayton ilə gəzən kim...
Quş qanadlı maşınlar
Ötüb keçir nəğməli;
Yaxın dursan yəqin ki,
Səni yıxacaq yeli.
Süzüb gələn "Şevralye"
Nəfəs dərib dayanır.
Çıxır nazlı bir gəlin,
Ətraf nura boyanır...
Sonra yaşlı bir zabit
Uşaqları düşürür,



Xanımına əl edib
Yenə maşını sürür.
O əriyib yox olur
Yaşıl meşə yolunda.
Qalır bir çəngə tüstü
Qönçəli gül kolunda.
Xanım dedim – pərimi,
Mələkmidir o görən?!
Gözəllikdə mislini
Görməmişəm hələ mən.
Mən, uşaqlar, söylədim,
Baxın, baxın onlara:
Oğlan totuq, ağbəniz,
Qızsa arıq, qapqara.
Oğlan oynar qayğısız,
Dəcəllikdir hər işi.
O qızınsa sönübdür
Gözlərinin atəşi.
Yanıb, qara kösövə
Dönmüş əli-ayağı.
Solmuş – "ana" sözünə,
Südə həsrət dodağı.
Qız oğlandan cəmisi
İkicə yaş böyükdür.
Oğlanın hər qayğısı
Qızın çiyninə yükdür.
Desə atıl Senaya,
Çıxa bilməz sözündən.
Yeddi yaşlı bu uşaq
Qoymur onu gözündən.
Arx gələndə, belinə
Alıb onu keçirir.
Bu körpə o körpəni
Hey yedirir-içirir.
Ovucunda verdiyi
Öz qaraca gözümü?
Yox, o şirin gilədir,

Əlcəzair üzümü!
Oğlan rezin topunu
Hara gəldi atanda,
Qız yüyürüb gətirər...
Əllərinə yüz tikan
Sancılanda, batanda
Soruşan yox, bilən yox.
Bircə kərə onunla
Dərdləşən yox, gülən yox.
Oynamaqdan yorulub
Dinclik vaxtı çatanda
Oğlan halsız uzanıb
Qu döşəyə batanda
Başı üstə dayanan
O zil qara qıza bax!
Öz qəlbini elə bil,
Çevirir varaq-varaq.
Özü şirin laylaya
Həsrət qalan o körpə
"Lay-lay" deyib yatırdır
Körpəni öpə-öpə.
Öyrədibdir bunları
Ona firəng qarısı.
Oxuyanda qarışır
Laylaya öz ağrısı:
"Özü balaca, layla,
Milləti uca, layla!
Çox da ki, həmyaşınam,
Qulun, qarabaşınam.
Dadma acı, qəm-kədər,
Bil ki, ölənə qədər
Sənə sadiq nökərəm,
Sənsiz qan-yaş tökərəm.
Çox da ki, həmyaşınam,
Qulun, qarabaşınam.
Layla, balaca, layla,
Ad-sanı uca layla!.."



Körpələrdən birisi
Mışıl-mışıl uyuyur,
O birisi durmadan,
Dayanmadan oxuyur,
Başı çiyninin üstə,
Qara gözləri yaşlı,
Ürəyi səksəkəli,
Baxışları təlaşlı.
Sərin-sərin oxuyur,
Layla dedikcə deyir,
Öz qəlbini nədənsə
Ovundura bilməyir.
Neçə sehrli sual
Xəyalını bürüyür,
Hər sualın dalınca
Kəpənəyi qovantək
Yüyürdükcə yüyürür.
Bircə anlıq dağıdır
Dərdlərini meşəyə.
Elə bu vaxt yenidən
Gözü dəyir beşiyə.
Qəhər boğur, nədənsə
Sinəsini od tutur.
Sualları könülsüz
Tikə kimi o udur.
Baş qaldırır yenidən
Təzə-təzə suallar,
Qəlbin necə sehrli,
Qəribə aləmi var:
"Mən də səntək kiçiyəm,
Görən kiməm, nəçiyəm!
Anam-atam olubmu,
Heç qayğıma qalıbmı?
Layla deyibmi mənə
Sözü hikmətli nənə?!
Axı, bütün bunları
Nəkarəyəm biləm mən,

Nəkarəyəm, nəçiyəm
Sən gülməsən güləm mən.
Çox da ki, həmyaşınam,
Qulun, qaravaşınam.
Layla, balaca, layla,
Ad-sanı uca layla!
Çox da ki, həmyaşınam,
Qulun, qaravaşınam!.."

İki uşaq, bir qadın
Gözləyirlər nə vaxtdan,
Maşın gəlib onları
Aparacaq bəs haçan?
Qadın dedim! Bir də bax,
Şeytanmıdır o görən?
Çirkinlikdə mislini
Görməmişəm hələ mən.
Uşaq dedim! Körpələr...
Biri fransız oğlu,
Ərəb qızıdır biri,
Sala bilmir yadına
Doğma Əlcəzairi...
Sanır ona bu güllü,
Qızıl qəfəs – vətəndir.
Fəqət bilmir bu rəftar,
Bu işgəncə nədəndir.
Bilmir... Gəlmir yadına
Kəndlərinin yandığı.
Bilmir... Gəlmir yadına
O günləri, o çağı.
Bilmir... Gəlmir yadına
Bir fransız zabiti
Avtomatdan keçirmiş
Günahsız bir külfəti.
Kəsiləndə atanın,
Ananın son naləsi,
Diksindirmiş cəlladı



Ağlar bir körpə səsi.
Bilmir... Gəlmir yadına
Tutmuş onun qolundan,
Demiş gözəl Parisə
Apararam ərməğan
Bu boz səhra gülünü,
Bağrı yanıq laləni,
Körpəlikdən başlayıb
Əyləndirsin körpəni.
Qoy Bulon meşəsində
Saralsın o, solsun o;
Layla deyən, iş görən
Canlı kukla olsun o.
Bilmir... Gəlmir yadına
Qızı qoyub maşına,
Bir dik qələm çəkdilər
Onun uşaq yaşına.
Keçirmədi o vaxtdan
Körpəliyi bu tifil,
Dünyagörmüş dayədir,
Bir qarıdır elə bil.
Quş qanadlı maşınlar
Ötüb keçir nəğməli;
Yaxın dursan yəqin ki,
Səni yıxacaq yeli.
Süzüb gələn "Şevralye"
Nəfəs dərib dayanır.
Axşam olub, cənubda
Qoşa ulduzlar yanır.
Zabit tutur ağrıyan,
Zoqquldayan başını.
Diqqət edib ətrafa
İşə salır maşını.
Uzaqlaşıb itir o,
Tutqun Paris yolunda,
Qalır bir çəngə tüstü
Qönçəli gül kolunda.

## LƏKƏLƏR

*Pəncərədən bu səhər*
Seyr edirəm Nili mən,
Çalalarda göllənib
Sakitləşən seli mən.

Sübh şəfəqi Ramzesin
Heykəlində alışır.
Coşan ərəb qanıtək
Köpüklənib Nil daşır.

Yağış gecə isladıb
Köynəyini şəhərin –
Pul-pul olmuş ləçəyi
Çiçəklərin, güllərin.

Büzüşən tər qönçələr
Gün vurduqca açılır.
O parlayan şehmidir,
Qığılcımmı saçılır?!

İslanmışdır qır yollar,
Daş döşəli səkilər...
Seyr edirəm küçəni
Pəncərədən bu səhər.

Su sıçradır maşınlar,
Qalxıb yuyunur şəhər.
Sahil boyu açılır
Bambaşqa bir mənzərə:

Durub gedir birbəbir
Səkilərdə yatanlar.
Cırıq, köhnə həsiri
Selə-suya batanlar.

Durub gedir ev-eşik,
Həyət-baca görməyən;
Yaşı yüzü haqlayan,
Bir gün ömür sürməyən,



Gözlərini dünyaya
Küçələrdə açanlar,
Yumruqları düyümlü,
Baxışı od saçanlar,

Ağ çalmalı qocalar,
Ayaqyalın nənələr.
Varmış yurdsuz-yuvasız
Bu şəhərdə nə qədər?!

Qalır onların yeri
Yaş səkidə qupquru.
Sanki sınır bu anda
Qahirənin qüruru.

Xal-xal olan səkilər
Verir gözəl şəhərə
Ağla, fikrə sığmayan
Dəhşətli bir mənzərə.

Adam boyda ləkələr
Artır, artır gör necə
Yağış tutan yerləri
Onlar tərk elədikcə...

*Bu, doğrudan, ləkədir,*
Düşündürür aləmi,
Yadelli yağılardan
Qalıb mənfur iz kimi...

Talan oldu bir zaman
Şərqin dövləti-varı.
Qərbli fil sümüyünə
Tutdu daşı-divarı.

Burda düşdü kasıba
Nə bir dalda, nə çətir.
O mənzərə tarixdə
Silinməz bir ləkədir.

Yox, yox, günəş boylanır
Azadlığın günəşi.
Qaranlığı, kölgəni
Udur onun atəşi.

O, qalxdıqca küçələr,
Meydançalar güləcək.
Onun nuru dünyadan
Ləkələri siləcək!

## YARALI HEYKƏL

Qədim bir şəhərin xərabələri
İraq torpağında çıxıbdır üzə.
Şərqin qalaq-qalaq ölməz əsəri
Burda min əfsanə danışır bizə.

Neçə xəyal qonub bir qaya üstə –
Çalğıçı heykəli, mizrabı teldə...
Daşlarda ney səsi, daşlarda bəstə,
Sonuncu akkord da eşidilmədə...

Boyaboy dayanan o nəğməkarı
Yaşadır sənəti heykəltaraşın.
İnsanın əməyi, pak arzuları
Güldürmüş üzünü bir çopur daşın.

Qaya təbəssümə bürünərdimi
Sənətkar gözündən nur tökməsəydi?!
O, uca, möhtəşəm görünərdimi
Önündə illərlə diz çökməsəydi?

Özü düşməsəydi duyğu selinə
Sənət dağ çayıtək çağlayardımı?!
Mizrab vurmasaydı ürək telinə
Daş da heç dil açıb ağlayardımı?!



Üstünə gün şaxır, yağış çiləyir,
Külək qılınc çəkir neçə min ildir!
Yaşayır! Min il də ömür diləyir,
Fəqət ağır yara alıb o bildir...

Olub boyun-boğaz, üz dilim-dilim,
Ling cızıb alnını, çatma qaşını –
Deyirlər Londondan gələn bir alim
Qoparmaq istəyib onun başını.

Qoparmaq istəyib gizli, xəlvəti
Gecələr qurd kimi o qalıb oyaq.
(Beləymiş onların mədəniyyəti
Girər özgə evə oğrular sayaq.)

O, ev sahibinin gülüb üzünə
Talamış varını, sənətini də;
Hesaba vurduqca, çıxmış özünə
Ulu babasının zəhmətini də.

"Mədəni" oğrunun əməllərini
Görmək istəsən
Dolaş Avropanı, Qərb ellərini,
Muzeyləri sən!

Misirin dağılıb diyarbədiyar
Mədəniyyəti.
Nə günə qalıbdır qədim allahlar –
Yunan sənəti.

Misilsiz vücudu Afroditanın
Luvra çatıbdır.
Qıçını Venaya Kron atanın
Kimsə atıbdır;

Qılıncı Aresin – hərb allahının
Nyu-Yorkdadır;

Başı Drezdendə, bədəni onun
"Etnopark"dadır.

Qərbin muzeyləri qədim sənətə
Olub qəbristan.
Abidələr var ki, gəlir dəhşətə
Baxanda insan.

Abidələr var ki, baltalanıbdır
Güc çatmayanda.
Kəlləsi bir yanda düşüb qalıbdır,
Leşi bir yanda.

Heraklın gövdəsi – Londonda, əli, –
Brüsseldədir.
Talanan bir heykəl neçə qitədə,
Neçə eldədir!!

Dilindən eşitdim bir yunanın mən
Bu dəhşətləri.
Dedi: Avropanın muzeylərindən
Yığılsın geri

Ellada yurdunun doğma sərvəti
Qoy yavaş-yavaş...
Yığılsın babamın sözü-söhbəti –
Hər yazılı daş!

Bu səs, bu şikayət bu gün hər yanı
Gəzib dolaşır...
Beləcə bir dərdə ərəbin qanı
Daldıqca daşır...

Qərbli əsrlərcə gülüb üzünə
Talamış ərəbin sənətini də,
Hesaba vurduqca çıxmış özünə
Ulu babasının zəhmətini də.



Belə düşüncəylə, bu "qanacaqla"
Özünü yetirmiş alim, heykələ –
Hücuma keçmişdir linglə, bıçaqla,
Gəlmişdir dəhşətdən qayalar dilə.

Namərdin qəsdini sanki duyunca
Min yaşlı sənətkar qalxmış ayağa,
Olubdur o alim ömrü boyunca
Belə "qocalarla" çox əlbəyaxa.

Bu dəfə niyyəti gözündə qalmış,
Qopara bilməmiş başı bədəndən.
Bir zərblə əlindən lingini salmış,
Qəfil yaxalanmış qatil, başkəsən!

Baxışı od saçır indi heykəlin,
Yarası sızlayır, həyəcanlıdır!
Təkcə bir alim yox, neçə qərblinin
Şərqi boğazlayan əli qanlıdır!..

## DAŞ MƏKTUBLAR

Boyalı heykəllər, yazılı daşlar
Xəyalı oynadıb çəkir uzağa,
Hər əsrin neçə min hekayəti var,
Tərpətsən nəsillər qalxar ayağa...

Sümüyü toz olan mərd insanların
Əməli indi də şölələr saçır.
Sanki səsi gəlir qırıq qeytarın,
Bağdad muzeyində hər şey dil açır.

Əl boyda daşlara dikilir gözüm –
Tarixdən əvvəlin yadigarıdır.
Üstündə min nəqşə, söz düzüm-düzüm...
Deyirlər məhəbbət məktublarıdır.

...Bir qul sahibkarın sevib qızını
Qəlbin sualına cavab almamış.
O şöhrət dəlisi, daş-qaş azğını
Dönüb qara qula nəzər salmamış.

Kaş, eşqi qəlbindən ata biləydi,
Yetəydi tənələr, təhnizlər sona.
Əcdadı köləydi, özü köləydi,
Sultanlıq vermişdi məhəbbət ona!

Əlacı nə imiş o binəvanın,
Yolunu çöllərə, dağlara salmış.
Səsinə səs vermiş qayalar onun,
Ah çəkmiş – nəqşəsi daşlarda qalmış.

Təbiət qoynunu açmış sərasər
Xilas etmək üçün aşiqi dardan.
Tökülmüş önünə daşdan namələr
Qopub qəlpə-qəlpə sal qayalardan.

Vermiş Fərat çayı gücünü ona,
Bağdad bülbülləri titrək səsini,
Hədiyyə aparsın deyə yarına
Lounduz dağları bənövşəsini.

Sehrlə yazılan o daş baratı,
Şehli çiçəkləri yetirmiş qıza.
Ad-sansız aşiqin ürək sovqatı
Gülünc görünmüşdür o insafsıza:

"Nəyinə lazımmış o güc, o qüdrət –
Zəncirdə on fili, pələngi vardır.
Nəyinə lazımmış çiçəkdən dəmət
Daş-qaşa tutulan çələngi vardır.

Nəyinə lazımmış qaya qəlpəsi –
Evdə qızıl-gümüş tabaq-tabaqdır.
Nəyinə lazımmış bülbülün səsi
Şirin yuxudanmı ayıldacaqdır?!"



O daşqəlbli gözəl, tər bənövşəni
Əzib ayağıyla torpağa qatmış.
Götürüb əlinə o daş naməni
Oxuyan bülbülə tuşlayıb atmış.

Deyirlər dəyibmiş hədəfə birbaş,
Eşqin ilk məktubu paralanıbdır.
Bülbülün qanına bulanıb o daş,
Oğlanın qəlbi də yaralanıbdır.

Dumana bürünüb Lounduz dağı,
Aşiqləri belə görməyim deyə.
Bir nalə yandırıb daşı, torpağı
Ucalmış göyə:
"Əzizim qanad ağlar,
Qəlb titrər, qanad ağlar,
Bülbül yaralı uçdu,
Boyandı qana dağlar".
Min illər ötmüşdür... indi muzeydə
Həmin daş məktublar tər-təzə qalır.
Gənclərin dilində, qeytarda, neydə
Nakam məhəbbətin səsi ucalır...

## YANIB-SÖNƏN İŞIQLAR

Ərəblər yığılmış sahil boyunca,
Açıqıq dost kimi ürəyimizi.
Danışıb-gülmədən hələ doyunca
Bu gecə ayrılıq gözləyir bizi.

Bizi göyərtəyə səsləyir gəmi,
Sahildən üzülmür ayaqlarımız.
Baxıb üzümüzə ərəb səmimi
Ev yiyəsi kimi edir dil-ağız.

İzdiham gurlaşır – o, Nil çayıdır,
Yoxsa qopub gəlmiş Misir yerindən?!

Salam busələri gəlib qayıdır,
Baxışlar ayrılmır biri-birindən.

Bizə ləzzət versin, xoş gəlsin deyə
Biri rəqs eləyir, biri əl çalır.
Biri muncuq, gözlük verir hədiyyə,
Biri sevgi dolu xoş nəzər salır.

Burda unudulmaz bir adət də var:
Əziz qonaqları yola salanda
Göz vurur sahildə parlaq işıqlar,
Gah sönüb, gah da ki, yanır bir anda.

Qaranlıq gușədə əl fanarları,
Sahil evlərində neçə pəncərə,
Belə yanıb sönür –
Bu gecə yarı
Əlvida şöləsi düşür şəhərə!

Siqnallar nə deyir – sürücü anlar,
Özü də səs verər min bir həvəslə.
Bu gün sıra ilə duran maşınlar
"Yaxşı yol!" söyləyir siqnal səsilə.

Ayrıldıq limandan biz nur içində,
Dualar oxudu musiqi bizə.
Qabardı sevgilər nurlu gecədə
Axdı dalğa-dalğa, axdı dənizə.

## MƏN NƏ HAYDAYAM

Yeni il gecəsi...
Vətəndən uzaq,
dost-tanışdan uzaq
bir məkandayam.
Burda nə qar vardır,
nə də ki, sazaq



qışın bu vaxtında
gör hayandayam...
Təyyarə işləmir...
qürbətdə gərək
hələ bir həftə də
günləri sayam.

Nilin sahilidir,
hər yan gül-çiçək...
Mən suyu sovulan
qurumuş çayam.

Yanaşıb göz vurdu
bir əsmər bəniz.
Ərəb qızına bax,
dəyişib əyyam.

Fikrimdə ev-eşik,
cibim tərtəmiz,
gör bu nə haydadır,
mən nə haydayam...

## ÇƏTİR ÜRƏK

Ananın başına tökülür yağış,
Qoynunda rahatca uyuyur çağa.
Yamanca sərt gəldi ötən ilki qış,
Onda da üstünə qar yağa-yağa
Körpəni riqqətlə bağrına sıxdı,
Səbirlə gözlədi baharı yenə.
Yaz gəldi, nimdaşı əynindən çıxdı,
Büründü dumana, büründü çənə.
Çətirə bənzəyər ana ürəyi,
Açılar hər ləhzə balası üstə.
Nəfəsi geriyə qovar küləyi,
Gözləri göylərdə, qulağı səsdə...

Vətən didərgini cavan gəlinin
Çətir ürəyini daş-dolu döydü,
Fələstin şöhrətli ərəb elinin
Övladı çöllərdə belə böyüdü.
Ata gah Beyrutda, gah Qahirədə,
Parisdə, Londonda... axtarır yadı.
O, gah kabinetdə, gah təyyarədə
"Bəni-İsraillə" əlbəyaxadı –
Duranda doğmayla yadlar yan-yana,
Qovula-qovula o, "namərd" olur.
Odur ki, təşnədir namərd qanına,
Boşalmış silahı qisasla dolur.
Şimşəkli baxışı dönür nizəyə,
Əlimyandı gəzir onu bütün gün,
Gəzir, Təl-Əvivi salıb lərzəyə
Doğma komasına qovuşmaq üçün,
Övlad öz kefində, öz damağında,
Ulduzlar altında açıb gözünü.
Qarğıdan at minib oynamağında,
Qayğısız şahzadə sanır özünü.

Nə görüb zavallı? Elə bilir ki,
Alaçıq möhtəşəm bir imarətdir.
Nə görüb zavallı? Elə bilir ki,
Hər xurma peşkəşi bir ziyafətdir.

Nə görüb zavallı? Elə bilir ki,
Bir çiçək açdımı – Vətəndə yazdır.
Nə görüb zavallı? Elə bilir ki,
Cır-cındır paltarı milli libasdır.

Ana, dərdli ana gizlədib qəmi,
Gözləyir əsgəri – can sirdaşını.
Qoruyur bəladan bir çətir kimi
Gələcək dövlətin vətəndaşını!



## BİLİNMƏZ

Bağdadın libası al-əlvan olar,
Baharı xoş keçər, qışı bilinməz.
İldə bir neçə yol açılıb solar,
Burda gül-çiçəyin yaşı bilinməz.

Yanvarda bu yerə düşsə bir qərib
Deyər tale məni hara göndərib?
Təbiət çöllərə bir xalı sərib,
Torpağı, kəsəyi, daşı bilinməz.

Boldur narıngisi, gülöyşə narı,
Uzanır şahildə xurma bağları,
Mehriban Dəclənin axar-baxarı
Gözəldir – ayağı, başı bilinməz.

Gəzdim, ötüb keçdim dönə-dönə mən
"Örtülü bazar"dan, "Açıq küçə"dən,
Hər yan xəbər verdi "Min bir gecə"dən,
Hardadır o quldurbaşı, bilinməz.

Bir qadın oxuyar hey yana-yana
Bağdadın özüdür o kövrək ana!
Ötən günlərini salıb yadına
Ağlayar, gözünün yaşı bilinməz...

## YOL GEDİRİK

Çaydan keçdik, gəldi meşə
Ağacları bulud-bulud,
Səhra adlı bir məfhumu
həmişəlik unut, unut.

Meşə belə barlı olmaz...
cərgələnib alma, üzüm;
Bu üfüqdən o üfüqə
ərik bağı, qoz bağıdır.

Ayıq-sayıq bağban kimi
qələmələr düzüm-düzüm.
Əsən külək üstümüzə
meyvə atır, gül dağıdır.

Əlvan payız – şeriyyətdir,
qanad sərib bu torpağa,
Mat qalırıq ötüb keçən
gözəlliyə baxa-baxa.

Ağacların arasıyla,
sürətimiz yüzə çatır,
Maşınımız yol boyunca
gülab içir, şehə batır.

Sübh çağından axşamacan
yol gedirik biz bu sayaq.
Yol gedirik, yol gedirik
dörd yanımız meyvəli bağ!

Gəzdiyimiz barlı ölkə
dedik bəlkə,
Bəlkə nağıl, ya röyadır?
Bir səs gəldi: – Xeyr, bura
Moldaviyadır! Moldaviyadır!

## İVAN FRANKOYLA SÖHBƏT

Karpatın hər səmti carçıya döndü –
Çağırdı quş səsi, çay sədasilə.
Həvəsim çiçəyə, qara büründü,
Zirvələr: gəl! – dedi qız ədasilə.

Enib pillələri bircə nəfəsə
Tərpənən maşına saldım özümü.
Səfərim – gözəllik... haraya gəlsə,
Meşəli dağlara tutdum üzümü.



Gəzdim Skoleni – yaşıl şəhəri,
Toxtadım yetəndə gözəl Tuxlaya
İvan Frankonun sevdiyi yeri
Seyr etdim riqqətlə, mən duya-duya.

Dinməz salam verdim abidəsinə,
Sükut ahəng tutdu qəlbin səsinə.

Sonra da şerinə ilk beşik olan
Kəndinə yollandım – Hahueviçə.
Bu yerdə sənətə ev-eşik olan
Hər orman – şəhərdir, hər cığır – küçə.

Franko içdiyi çeşmədən içdim,
Franko keçdiyi Opiri keçdim.

Boyçuklu, Dovbuşlu hər mənzərədən
Moruq, gül topladım, əfsanə yığdım.
Başı qalmaqallı nağıl dərədən
Bulud müsahibli zirvəyə çıxdım.

Sənətkar çox baxıb yurduna burdan...
Uzaqlar, yaxınlar fikrə dalırdı.
Qartalmı ətrafda elə qıy vuran,
Şer pərisimi qanad çalırdı?
Şairlə xəyalən həsb-hal etdim,
Mövzumuz ilhamdı, bir də təbiət:
" – Karpat! Qafqazımın əkiz qardaşı –
Önündə heyrətdən büt kimi bitdim...
Təbin qərargahı, qəlbin sirdaşı,
Döşündən sel kimi axır söz-sənət..."

" – Demək öz başına yaranır şeir?!"
" – Sizintək... – deməyə dilim gəlməyir,
Fəqət bu füsunkar diyarda babat
Bir şair olmağa nə var ki, ustad!.."

# KİÇİK ASİYADA BÖYÜK İNSAN

*Tofiq Fikrətə*

## 1. GÜLƏ BİLMƏDİM...

Bosfor sahilinə düşdü güzarım,
Nağılmı, röyamı bilə bilmədim.
Çoxaldı sevincim, artdı məlalım,
Ağlaya bilmədim, gülə bilmədim.

## 2. ƏN GÖZƏL PƏNCƏRƏ

Bosfora açılan bir pəncərə var,
Adidən adidir çöldən baxana.
İşdir, o yerlərə eyləsən güzar
Otağın içindən gedib bax ona.

Yox, hələ qapıda bir az nəfəs dər,
Axı dik yoxuşdur sahildən bura,
Qəlbini, beynini hey yora-yora
Suala tutmuşdur səni sərvlər.

Nəhayət, mənzilə gəlib çatmısan
Budur o məbədgah, budur Aşiyan.
Yox, hələ həyətdə dolanaq, gəzək,
Bura bağçamıdır, ya adi meşə?
Bürüyüb ətrafı yabanı çiçək,
Qayamı, timsahmı sərilib döşə?

Şairin *dilindən qopan mahnılar*
Uçaraq qonubdur o boz qayada[1]

Yuxulu qumrutək dayanıb onlar,
Sehrli səs gərək bir-bir oyada.
Masa da qayadır, kürsü də qaya,

[1] Fikrətin şeirlərindən bəzi nümunələr öz həyətindəki təbii qayalara həkk edilibdir.



Birinə bir çəkic, düsər dəyməyib.
Üç sərv – üç sənəm, boya bax, boya,
Məğrur qədlərini rüzgar əyməyib.

Bir vaxt nəğməliymiş bu ev, bu həyət,
"Süküni xabdadır" indi sahibi.
Alıb qucağına onu "faniyyət"
Dildə dalğa-dalğa qalsa da təbi.

Sənət aşiyanı – bu dilbər guşə
Ayrı yaşamamış yaradanından.
Şair türbəsində bitib bənövşə,
Palıd çələng vermiş öz fidanından.

Sahibi sızlayar, yəqin ki, əysən
Məhzun budağını burda bir kolun.
Könül, bu türbəyə bir də baş əy sən,
Düşmür ki, buraya həmişə yolun.

Kövrək bir xanım var, şer vurğunu
Gözləri şehlidir, adı da Jalə.
Qonduğu yarpaqdan üfürüb onu
Bizim eldən bura uçurmuş tale.

Dili üsyanlıdır, səsi mükəddər,
Fikrətin şerində tapıb aşiyan.
Hekayət danışır ona sərvlər,
Bura ona munis, o bura həyan.

Şairin hər sözü, addımı, izi,
Arzusu, əməli ona tanışdı.
Ev yiyəsi təki gəzdirdi bizi,
Otaqdan-otağa keçib danışdı.

Sonra da apardı qəmli hücrəyə.
Bağlı pəncərəni o, nişan verib

Dedi:"Məftun imiş bu mənzərəyə,
Ona baxa-baxa şair can verib.

Nigaran-nigaran baxmış son kərə,
Seyr etmiş yurdunun ənginlərini.
Sizə də qismətmiş həmin mənzərə,
Süzün təbiətin şah əsərini..."

Əlini riqqətlə atdı taxtaya,
İşıqlandı otaq, dəyişdi aləm,
Boyadı üfüqü min dürlü ziya –
Belə çəkdi bunu əlimdə qələm:

Göy tülə bürünüb sahil şamları,
Orman tala-tala, bağ tala-tala.
Qədim fatehlərin bürcü-hasarı
Gömmüş yaşıllığa, getmiş xəyala.

Qəsrlər fikirli, çəmənlər şaqraq,
Təpələr sükutda,
Bosfor çağlayır.
Lövhəmi açılan bu varaq-varaq,
Yurdun taleyimi gülüb ağlayır?
Baxıb gözəlliyə, baxıb bu sehrə
Doymadı şair.
Durdu keşiyində – qələmi yerə
Qoymadı şair.

O, bu pəncərədən atəşlər açdı
Yamana, pisə;
O, bu pəncərədən şəfəqlər saçdı
Dumana, sisə.

Sisli səltənətdə hey yaza-yaza
Sualtı axıntək kükrər, daşardı:
"Zülmün topu var, gülləsi var, qələsi varsa,
Həqqin də bükülməz qolu, dönməz üzü vardır!.."



Bu sözü söyləyən şair idimi,
Müğənni idimi, yoxsa qəhrəman.
Yaşadı bir şimşək büsatı kimi
Kiçik Asiyada o böyük insan!

## ULU DAĞ

Osmanlının cənnətiymiş Ulu dağ,
Göyün yerə minnətiymiş Ulu dağ.

Ətəyində yaşıl Bursa şəhəri,
Fatehinin ilk büsatı, son yeri.

Möminlərin, asilərin... millətin
Arzusu bir: "Bu behiştdə dəfn edin..."

Yüz illərin təkidiylə bu məkan,
Bu gözəllik dönüb olub qəbristan.

Bir tərəfdən müqəddəsdir vəsiyyət,
Bir tərəfdən narazıdır təbiət.

Bir tərəfdə qartal bala uçurur,
Bir tərəfdə ovçu ona tor qurur.

Bu torpaqda əsir qalıb Hannibal,
Bu torpaqda cavabsızdır min sual.

Behişt olmuş bura qədim sənətə,
Məhbəs olmuş bura Nazim Hikmətə.

Sinəsində neçə-neçə dürlü dağ,
Bu dərdlərə dözər ancaq... Ulu dağ.

## AĞLAYAN QIZ

– Nerelisiz?
– Bakıdanam...
– Baküdenmi?!
– Ordan, bəli...
Baxdı bir an min həsrətlə,
Yaylığına getdi əli:
– Sayın beyler, efendiler...
Akrabamsız sizler benim,
Sizler benim...
İstanbulda doğulmuşum,
*Fakat, fakat... Gencedenim,*
Gencedenim...
Orasıdır baba yurdum!
Rahm etmedi talc bana,
Pek uzakta yuva kurdum...

Açılırdı dərdi qızın,
Qəhərlənib sevinirdi,
Odlanırdı xısın-xısın,
Gah susurdu, gah dinirdi.

Boğulurdu söz deyəndə,
Güləndə də ağlayırdı,
Qürurunu, təmkinini
Çətinliklə saxlayırdı.

Dindirmədim, dindirsəydim
O daşardı hönkür-hönkür,
Bir üzündən Araz çağlar,
Bir üzündən axardı Kür.

Dindirmədim, dindirsəydim
Bəlkə elə birdən-birə
Riqqətindən huşsuz düşər,
Bayılardı o biçarə.



Dindirmədim, dindirsəydim
Dözməzdim heç mən özüm də.
Ummanın ilk qətrəsiydi
Gilələnən yaş gözümdə...

## TÜRK GÖZƏLİ

Mərmərəni seyr elədik ada-ada,
Gözəllikdən gözəlliyə çata-çata,
Ada demə, altı bacı – su pərisi,
Gülab səpdi arxamızca hər birisi.
Böyük ada, Yaşıl ada güldü gözə.
Heyran qaldıq uçrumlara, şamlıqlara,
Heyran qaldıq: dəniz hara, bulaq hara?

Xınalıda bir qız çıxdı gəmimizə.
Elə bil ki, süzülmüşdü o mahnıdan:
"Aman allah, gözlərə bax, gözlərə bax..."
Pəri idi, kim deyərdi bəni-insan.
Üzüb gəlmiş mavilikdən ayrılaraq.
Yox, tanışdı, doğma idi, qəşəng idi,
Salam verib yanımızda yer istədi.
Geyinmişdi yeni dəblə – donu dizdən.
Çantasıyla gizlətsə də bunu bizdən.
Danışdıqca incə-incə, şirin-şirin,
Hiss elədik qəlbi safmış, fikri dərin.

Gətirmişdi saçında çöl çiçəyini,
Baxışında dərələrin yuxusunu,
Yanağında zanbaqların ləçəyini,
Üst-başında zeytun, ardıc qoxusunu.
Gözlərində ləpələrin mor rəngini,
Gülüşündə Sakaryanın ahəngini.
Təbiətdən yoğrulmuşdu təbiəti.
Tapındığı – öz torpağı, öz milləti.

Mərd davransan niyyətini o, bilərək
Hörmət qoyar, yüz kişidən seçər səni.
Maral gözü şir gözünə çevrilərək
Baxışının qılıncıyla biçər səni

Tamah salıb sərxoş-sərxoş baxsan ona.
Qəzəbindən dönər çılğın bir aslana,
Atılar da üzərinə dəli-dəli
O mehriban, o füsunkar türk gözəli.



# Fərəhli-Ayazlı dünyam

*Açıldı aləmə Fərəhin gözü –*
*Bir damla nur düşdü baxışlarından.*
*Bu kiçik zərrədən – nur mirvarından*
*Dünyanın bir az da nurlandı üzü.*

## LALƏ

Bir çiçəyəm döşləri,
Dolayları bəzərəm.
Oğlanların, qızların
Yaxasında gəzərəm.

Soyununca donumu,
Rəngim olar qırmızı.
Üzüm gülü andırar,
Yarpaqlarım yarpızı.

Ürək açan rəngimi
Uzaqlardan görəntək
Uçub qonar üstümə
Bal arısı, kəpənək.

Duyunca yoxdur ətrim –
Bir an da tutmaz qərar.
Nişanədir bu dərddən
Sinəmdəki qaralar.

Lakin zərif çiçəyəm,
Yaraşığam çöllərə.
Hər eldə, hər ölkədə
Adım düşüb dillərə.